BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2013

UOT 94 (479.24)

# ŞƏKİ-ZAQATALA BÖLGƏSİ ƏHALİSİNİN MƏNƏVİ MƏDƏNİYYƏT MƏSƏLƏLƏRİNƏ DAİR

**N.H.QULİYEVA**
***Bakı Dövlət Universiteti***
***nuridagulu@yahoo.com***

*Məqalə Şəki-Zaqatala bölgəsi əhalisinin mənəvi mədəniyyət məsələlərinə həsr olunmuşdur. Məqalədə polietnik mühitdə etnik-mədəni proseslərin əsas istiqamətləri, vahid etnik-mədəni sistemin formalaşma imkanları etnoqrafik tədqiqata cəlb olunur. Bundan əlavə, Şəki-Zaqatala bölgəsi əhalisinin mənəvi mədəniyyətinin bir sıra sahələri – din və ibtidai inam və etiqadlar, insanların dinə münasibəti, həmçinin bölgə folkloru – sınamalar, əfsanə və rəvayətlər, lətifələr, aşıq yaradıcılığı, atalar sözləri və s. barədə məlumat verilir, onların müasir vəziyyəti çöl-etnoqrafik materiallarının köməyilə təhlil olunur.*

**Açar sözlər:** etnos, islam mədəniyyəti, qurban bayramı, amulet, lətifə

Azərbaycan Respublikasının şimal-şərq ərazilərini əhatə edən Şəki-Zaqatala etnoqrafik bölgəsinə Şəki, Zaqatala, Balakən, Qax və Qəbələ rayonları daxildir. Keçmişdə bölgə etnoqrafik baxımdan orijinal ictimai quruluşa malik olmuşdur. «Car-Balakən camaatlığı» adı ilə məlum olan ictimai quruluşa yalnız bu bölgədə təsadüf edilmişdir.

Polietnik tərkibə malik Şəki-Zaqatala bölgəsində Azərbaycan türkləri ilə bərabər avarlar, ləzgilər, ingiloylar, udinlər, saxurlar, rutullar və bir sıra başqa xalqlar da yaşamaqdadır. Bu etnoslar öz etnik adlarını qorumaqla bərabər, Azərbaycan ərazisində məskun olduqlarına görə özlərini həm də azərbaycanlı hesab edirlər (1, 16). Etnik rəngarənglik bu bölgə əhalisinin ənənəvi həyat tərzi, maddi mədəniyyət və təsərrüfat məişəti ilə bərabər, mənəvi mədəniyyətinə sirayət etmiş və milli-mənəvi dəyərlərin çox maraqlı sintezini yaratmışdır. Belə ki, çoxəsrlik birgəyaşayış bölgədə məskun olan xalqları bir-birinə o qədər yaxınlaşdırmışdır ki, bu gün orada konkret maddi və ya mənəvi mədəniyyət elementinin hansı xalqa məxsusluğunu müəyyən etmək xeyli çətinləşir. Bu da o deməkdir ki, «etnik müxtəliflik və təxminən eyni sosial-iqtisadi və mədəni inkişaf şəraitində oxşar, məzmun etibarilə identik proseslərin baş verməsi tamamilə mümkündür» (2, 6).

Bölgənin mənəvi mədəniyyəti zəngin və coxcəhətlidir. Dini inanclarına görə bölgə əhalisinin 95%-dən çoxunu müsəlmanlar təşkil edir. «İslam onların şüurunda dərin kök salmış, şəriət və adət yerli əhali arasında davranışı tənzim edən tam qanunlar külliyyatına çevrilmişdir. İri ruhanilər cəmiyyətin ali təbəqəsi hesab olunurdular. Təsadüfi deyil, dairənin qədim yaşayış məskəni Qoloda Yaxın və Orta Şərqdə tanınmış ərəb mədəniyyəti mərkəzlərindən biri olmuşdur. Burada məşhur alim-ilahiyyatçıların böyük bir nəsli yetişmişdir. Müxtəlif dildə danışan yerli əhalini çoxəsrlik İslam mədəniyyəti sıx surətdə bir-birinə bağlamışdır» (3). İslam dininin bütün mərasim, ayin və bayramları–Mövlud günü, Qurban bayramı, Orucluq bayramı və s. Şəki-Zaqatala bölgəsində ən geniş şəkildə keçirilməkdədir. Nə çarizmin ağır müstəmləkə qanunları, nə də sovet rejiminin amansız ateist təbliğatı insanların islam dininə olan inamını sarsıda bilməmiş, müqəddəs islami dəyərləri sıradan çıxarmağa nail olmamışdır.

İslam dini ilə bərabər bölgədə islamaqədərki inamların təzahürləri də günümüzə qədər gəlib çatmışdır. Burada insanların kosmoqonik, animistik inamları və müxtəlif heyvan, quş və ağaclarla bağlı totemistik təsəvvürləri bu və ya digər formada insanların həyat və məişətinin ayrılmaz tərkib hissəsi kimi çıxış etməkdədir.

Məlum olduğu kimi, Azərbaycan tarixən bəşər sivilizasiyasının təşəkkül tapdığı ərazilərdən biri kimi səma cisimlərinə inam və sitayişin də ocaqlarından biri olmuşdur. Qədim yunan alimi Strabon hələ o zaman qeyd etmişdir ki, «albanlar allahlardan Heliosa (Günəş allahı), Zevsə (Göy allahı) və İberiya yaxınlığında məbədi olan Selenaya (Ay ilahəsi) sitayiş edirdilər (4, 18). Məlumat üçün bildirək ki, haqqında bəhs olunan həmin məbəd məhz Şəki-Zaqatala bölgəsi ilə həmsərhəd ərazidə yerləşir. Arxeoloji qazıntılar zamanı Yoloylutəpədə (Qəbələ) üzərində aypara və günəş təsvirləri olan daşların və müxtəlif məişət əşyalarının tapılması da bu fikirləri möhkəmləndirir.

Aya, günəşə və ulduzlara inamın təzahürlərinə məscid qüllələrində, qəbir daşlarında, insanların üzərində gəzdirdikləri müxtəlif amulet və talismanlarda, həmçinin ad və soyadlarda bu günün özündə də rast gəlmək mümkündür.

Bundan başqa, ay və günəşlə bağlı müxtəlif andlar, alqışlar, yasaqlar və tabular mövcud olmuşdur ki, onların da çoxu günümüzə qədər yaşamaqdadır. Bölgə əhalisi arasında üçgünlük ay daha müqəddəs sayılmış və ona sitayiş edilmişdir. Qadınlar aya baxanda yaşmaqlanıb salavat çevirirdilər. «Ay təzələnəndə baba və nənələrimiz diqqətlə baxar, ay daha parlaq idisə, bunu yaxşı əlamət hesab edərdilər» (5, 129).

Daş, qala, uca zirvələrlə bağlı inamlar bölgədə geniş yayılmışdır. Daşa inam gündəlik həyat, təsərrüfat, mifoloji inamlarla sıx bağlı olduğundan, daşa hörmətsizliyin insanlara bədbəxtlik gətirəcəyinə inanırdılar. İnsanlar daşı çevirməklə, hətta göydə uçan quşlara təsir etməyin mümkünlüyün zənn edirdilər. Başqa sözlə desək, inanclara görə, durna qatarı uçanda daşa dilək edib, onu çevirərsənsə, durna qatarı öz yolunu azıb aşağıya – yerə enməyə məcbur olacaqdır (5, 121).

Çöl-etnoqrafik məlumatlarından aydın olur ki, bölgə əhalisi arasında «Pəri qalası», «Kiş məbədi», «Xızır daşı», «Çingiz qalası», «Sirt qalası» və başqa daşlar və qalalar da müqəddəs sayılmış, haqqında müxtəlif inamlar, əfsanə və rəvayətlər yaranmışdır. Həmin əfsanə və rəvayətlərin süjet xətti və əsas məzmunu ümumazərbaycan kontekstində qalalarla bağlı bizə yaxşı məlum olan əfsanə və rəvayət süjetlərinin analoqunu təşkil edir ki, bu da mənəvi düşüncədə varislik prinsipinin davamlı olduğuna işarədir. Məsələn, «Pəri qalası» əfsanəsində qeyd olunur ki, Pəri adlı qız Şah Abbasın əlinə düşməmək üçün özünü qaladan yerə atır və həmin qala xalq tərəfindən onun şərəfinə belə adlanır. Burada həmçinin qadın namusunun və ləyaqətinin hər şeydən yüksək tutulması diqqəti cəlb edir (6, 143).

İbtidai inam və etiqadların böyük bir qismi ağaclarla bağlıdır. Məlum olduğu kimi, ulu babalarımız hələ uzaq keçmişdən bir sıra ağacları - palıd, dağdağan, heyva və əncir ağaclarını müqəddəs saymış və onlara sitayiş etmişlər. Bu barədə antik müəlliflərin əsərlərində və qaynaqlarda da məlumatlar vardır. Məsələn, qədim alban tarixçisi M.Kalankatuklu yazır ki, «…Hunlar ağaca at qurban kəsir, onun qanını yarpaqlara çiləyir, kəlləsini və dərisini isə onun budaqlarından asırdılar. Palıd ağacı bütün digər ağacların anası sayılırdı və bu ağaca Hun ölkəsində knyazın özü və əyanları da daxil olmaqla hamı sitayiş edirdi (7, 161).

Bütün Azərbaycanda olduğu kimi, Şəki-Zaqatala ərazisində də pir hesab olunan ağaclar vardır. Məsələn, Balakənin Mahamalar kəndindəki Hüzüley piri belələrindəndir. İnsanlar bu ərazidə bitən ağaclara təkcə əski parçaları bağlayıb dilək diləmir, eyni zamanda təzə parça və paltar da gətirirdilər (1, 103).

Ümumiyyətlə, bölgə xalqları arasında mövcud dini inamlarının tədqiqi göstərir ki, onların əksəriyyəti islamdan və xristianlıqdan əvvəl yaranmış və təbiət hadisələri, bitki və heyvanat aləmi ilə bağlıdır. Ən çox diqqəti cəlb edən cəhət isə odun müqəddəsləşdirilməsi, ata yurdunun «ocaq» adlandırılmasıdır. Keçmişdə bölgənin bəzi kəndlərində odun, günəşin şərəfinə təntənəli «Qorqud bayramı» adlı mərasimin keçirilməsi də fikirlərimizin təsdiqi kimi çıxış edir (8, 177). Bütün bunlar isə öz növbəsində Azərbaycanda tarixən formalaşmış vahid etnik-mədəni sistemin mövcudluğuna işarə edir və etnik identikliklə bağlı yuxarıdakı fikirlərimizi bir daha qüvvətləndirir.

İllərin, əsrlərin təcrübəsindən keçib gələn, xalqın məişət həyatında təsdiqini tapan və onun ayrılmaz hissəsinə çevrilən sınamalar, yasaqlar, qadağalar da böyük maraq doğurur. Burada insanların empirik bilikləri, hər hansı bir təbiət hadisəsinə görə olanları yozmaq istəyi və olacaqları proqnozlaşdırmaq bacarığı bütün qabarıqlığı ilə nəzərə çarpır. Məsələn, «Sağsağan oxuyanda, xamır sıçrayanda qonaq gələr» deyərlər. Bayquşun «ayağını kəsmək» üçün siniyə su, çörək və duz qoyaraq ucadan söyləyərdilər:

Bay quşu
Baylar quşu.

İnanclara görə, vəfat etmiş insanı son mənzilə yola salarkən «gözü evdəkilərdə qalmasın» deyə dalınca bir daş atıb deyərdilər:

Altın torpaq, üstün daş,
Yağış yağar, kəfənin olar yaş,
Bu dünyadan apardığın olsun,
Bir dənə daş.

Şifahi xalq yaradıcılığı bölgə əhalisinin mənəvi mədəniyyətinin mühüm bir hissəsini təşkil edir. Məlum olduğu kimi, şifahi xalq yaradıcılığı – folklor xalqın həyat və məişətinin güzgüsü olub, onun sevinc və kədərini, ağrı və acılarını, şikayət və etirazlarını, pak və təmiz məhəbbəti, qəhrəmanlıq mübarizəsini, ümumiyyətlə, bütün daxili aləmini obrazlı şəkildə ortaya çıxarır. Atalar sözləri və məsələlər, bayatılar, nağıl və dastanlar, layla və oxşamalar və s. formalarda təzahür edən bütün bu hisslər etnoqrafik baxımdan da maraqlı olub, bir çox məsələlərin araşdırılmasında mühüm rol oynayır.

Əldə olunan etnoqrafik materialların tədqiqi göstərir ki, araşdırılan bölgədə şifahi xalq ədəbiyyatı nümunələrinin çoxu Azərbaycan folklorunun təsiri altında formalaşmış və böyük bir hissəsi Azərbaycan türkcəsindədir. Layla və ağılar bir qayda olaraq sərbəst vəzndədir, əksəriyyəti Azərbaycan türkcəsində, bir hissəsi də yerli xalqların dilində səslənir.

Şəki-Zaqatala bölgəsində XIX əsrdə rus işğalına qarşı qəhrəmancasına mübarizə aparmış Şeyx Şamil və onun naibi Hacı Murad, Şəki xanı Hacı Çələbi xan, Süleyman peyğəmbər haqqında, həmçinin toponim xarakterli əfsanə və rəvayətlər də diqqəti cəlb edir. Onların bəziləri yerli xalqların ana dilində səslənsə də, əsas ruhu saxlanmışdır.

Bölgə əhalisi arasında aşıq yaradıcılığı geniş yer tutmuşdur. Azərbaycanlılarla bərabər, yerli xalqların içərisindən çıxmış aşıqlar olmuşdur ki, onlardan Aşıq Əlixan, Aşıq Əzim, Aşıq Məhəmməd, Aşıq Darçın, Aşıq Hüseyn, Aşıq Salam, Aşıq Murtuzəli, Aşıq Dibrov (Kamal), Muxtarlı Aşıq Əli, aşıq Ramazan, zəyəmli aşıq Camal, Əliabadlı aşıq Hüseyn, Aşıq Məhəmməd, Aşıq Cəmaləddin və başqalarının adlarını çəkmək olar. İnformatorların məlumatına görə, aşıq yaradıcılığında gərayı, qəhrəmanı, çəlili havaları, «Qəndab və Novruz» dastanı mühüm yer tuturdu. Xüsusilə, «Molla Cuma» dastanı aşıqların repertuarında geniş yer tuturdu. Keçmişdə toylarda dastanların ifası bəzən bir neçə gün çəkirdi. Əliabad aşıqları gözəlləmə aşıq havalarına daha geniş yer verirdilər.

Bölgənin ən məşhur aşıqlarından olmuş Molla Cuma Şəki-Zaqatalada deyil, Dağıstanda da toylara, el şənliklərinə dəvət olunurdu. Onun yaradıcılığı burada aşıq sənətinin inkişafına güclü təsir göstərmişdir. Məlumatlara görə, şamaxılı Aşıq Hüseyn Molla Cuma ilə tez-tez görüşür və deyişirmişlər (9, 30).

Lakin təəssüflə qeyd edək ki, vaxtilə aşıqları ilə məşhur olan bölgədə aşıq sənəti indi yox dərəcəsindədir. Bu gün Əliabadda cəmi bir aşıq - Aşıq Cəmaləddin aşıq yaradıcılığını davam etdirməkdədir (10, 305).

Bölgə folklorunun mühüm bir qismini də lətifələr təşkil edir. Xalqın məişətindən doğan, əsrlər boyu dildən-dilə keçən, satira və yumorla zəngin

lətifələr şəkililərin gündəlik danışıqlarının, ünsiyyətlərinin ayrılmaz tərkib hissəsidir. …Xalq müdrikləri lətifələr vasitəsilə paxıllığı, düşmənçiliyi, ədavət-nifaq toxumu səpənləri, şöhrətpərəstləri, var-dövlət hərislərini, özünü çox-bilmiş kimi qələmə verən diletantları, naşıları, nadanları, qanmazları satira və yumor atəşinə tuturlar (9, 6). Xüsusilə, Şəki lətifələrinin Azərbaycanın məhəlli lətifələri arasında xüsusi yeri vardır. Şəki lətifələri spesifik bədii keyfiyyətləri, dil xüsusiyyətləri, Azərbaycan folkloru kontekstində etiraf olunan qəhrəmanları ilə seçilir (11, 37).

Zarafatçıl, hazırcavab, sadəlövhlüklə müdrikliyi birləşdirən, fərasətli və rəhmli Hacı dayı (Hacı Feyzi oğlu İlyas) Şəkinin Molla Nərəddini kimi məş-hurlaşıb. Bunu aşağıdakı nümunədən də görmək mümkündür: «Hüzr məclisin-də bir gənc Hacı dayıya müraciətlə soruşur ki, cənazənin qabağında getmək məsləhətdir, yoxsa dalında. Hacı deyir: - Oğul, cənazənin qabağında, yaxud dalında getməyin heç bir təfotu yoxdur. Çalış cənazənin içində getməyəsən».

Bundan əlavə, bölgədə Mirzə Abdulcabbarın və Masaq İsfəndiyarın lətifələri də geniş yayılmışdır. Ümumiyyətlə, qeyd etməliyik ki, lətifə janrı çox həssas və çevik janrdır və tarixin gülüşəgəlimli bircə hadisəsi də onun nüfuz dairəsindən kənarda qala bilməz. ...Lətifənin kumulyatif nağıl formasını mənimsəməsi çox maraqlı və nadir folklor hadisəsidir. Bu hadisə bir də ona görə maraqlıdır ki, ən müasir mövzuların belə qədim ənənəvi formalarda parlaq şəkildə verilə biləcəyini müvəffəqiyyətlə yerinə yetirməkdədir (11, 11).

Ümumazərbaycan və ümumtürk folklorunda olduğu kimi, bölgə əhalisi-nin folklorunda bayatılara önəmli yer verilir. Məlum olduğu kimi, bayatılar xalqın hiss və düşüncələrinin, sevinc və kədərinin ən konkret və orijinal ifadəsi kimi daha geniş areala malikdir. Bunu aşağıdakı misralardan da görmək müm-kündür:

Mənim anam öz anam,
Ürəyi dolu söz anam.
Yad ağlar yalan ağlar,
Qoy ağlasın öz anam.

Yaxud

Körpüyəm Kür üstündən,
Min atı sür üstündən.
Ölmüşəm, yerdən götür,
Ağlama, dur üstümdən (9, 16-17)

Bölgədə yayılmış bayatılarda həmçinin incə yumora, təbəssüm doğuran orijinal fikirlərə də rast gəlinir ki, bu da, ilk növbədə, buranın ümumi ədəbi bədii mənzərəsindən irəli gəlir. Məsələn:

Əzizinəm bir də gəl,
Bir də eşit, bir də gəl,
Gündüz macal tapmasan,
Gecə saat birdə gəl (9, 17).

Xalq müdrikliyi, xalq təcrübəsi və uzaqgörənliyi şifahi xalq yaradıcılığının digər bir nümunəsində - atalar sözlərində də özünü qabarıq şəkildə büruzə verir. Şəki-Zaqatala bölgəsində yayılan atalar sözlərində də bu ruhu və məzmunu görmək mümkündür. Doğrudur, atalar sözlərinin də böyük əksəriyyəti ümumtürk, ümumazərbaycan səciyyəlidir. Lakin – çöl etnoqrafik materiallarından xalq yaradıcılığının bu tipli nümunələrində yerli şəraitdən, təsərrüfatın xarakterindən və məişət özəlliklərdən irəli gələn cəhətlərin də mövcudluğu nəzərə çarpır. Məsələn, «Bir ev tikməmişəm ki, yıxılanda «vay» deyəm», «Bir əppək olub it apardı», «Can onun, cəhənnəm tanrının», «Dadsız xörək bayata qalar», «İkiarvadlı ev zibilli olar», «İtin itdi – işin bitdi», «Kasıb xəyalında dövlətlənər» və s.

Ümumiyyətlə, Şəki-Zaqatala bölgəsi özünün polietnik tərkibi, təsərrüfat həyatı və məişətinin spesifiklikləri, tarixi zənginliyi ilə bərabər, əhalisinin mənəvi mədəniyyəti ilə də diqqəti çəkir və etnoqrafik baxımdan araşdırmaya böyük ehtiyacı vardır.

## ƏDƏBİYYAT


1. Paşayeva M. Azərbaycanlıların ailə mərasimlərində etnik ənənələr (XIX-XX əsrin əvvəlləri. Şəki-Zaqatala bölgəsinin materialları üzrə). Bakı: BDU, 2008, 308 s.
2. Şahbazov T. Azərbaycanda islamaqədərki inamlar (Lənkəran-Astara bölgəsinin materialları əsasında). Bakı: Xəzər Universiteti, 2008, 164 s.
3. Məmmədov Ə. Zaqatala dairəsinin əhalisi (XIX əsrin sonu – XX əsrin əvvəllərində). «Elm” qəz., 2000, 27 iyun, №23-24.
4. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: BDU, 1989, 322 s.
5. Məmmədli A. Şimal-Şərqi Azərbaycan: Balakən-Zaqatala bölgəsinin arxeologiyası və etnoqrafiyası. Bakı: OFSET, 2009, 160 s.
6. Quluzadə T. Şəki-Zaqatala əhalisinin mənəvi mədəniyyətinin bəzi məsələlərinə dair / Arxeologiya və Etnoqrafiya İnstitutunun 10 illiyinə həsr olunmuş elmi konfransın materialları. Bakı: Avrasiya-Press, 2003, s. 143-145.
7. Kalankatuklu M. Albaniya tarixi. Bakı, 1993, 293 s.
8. Kərimov E. Zaqatala, Balakən və Qax rayonlarına etnoqrafik səfərin yekunları / 2003-2004-cü illərdə aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiyanın materialları. Bakı, 2005, s. 176-177.
9. Azərbaycan folklor antologiyası. XVIII kitab. Şəki folkloru. III c. Bakı: Nurlan, 2009. 532 s.
10. Kərimov E., Allahmanlı M, Quliyeva N. Şəki-Zaqatala bölgəsinə etnoqrafik səfər // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, № 2, 2004, s. 303-308.
11. Çelebi F. Şəki folkloruna bir nəzər / Azərbaycan folklor antologiyası. VI kitab. Şəki folkloru. II c. Bakı: Səda, 2002, s. 3-32.

## ОТНОСИТЕЛЬНО МОРАЛЬНО-ДУХОВНОЙ КУЛЬТУРЫ НАСЕЛЕНИЯ ШЕКИ-ЗАГАТАЛЬСКОГО РЕГИОНА

**Н.Г.КУЛИЕВА**

### РЕЗЮМЕ

Автор дает научное обозрение духовной культуры населения Шеки-Загатальского региона. Автор статьи описывает процесс этнической культуры на фоне нескольких этапов развития процесса этнического формирования.

Кроме того, население этого региона традиционно приверженцы морально культурных традиций. Ряд районов этого региона имеют специфические особенности религиозных и культурных обрядов, и это прослеживается в проведении важных семейно-бытовых обрядов. При описании важных моментов духовно-культурной жизни населения этого региона автор использовал полевые этнографические материалы.

**Ключевые слова:** этнос, Курбан-байрам, амулет, анекдот

## THE ISSUES OF SPIRITUAL CULTURE IN SHAKI-ZAGATALA REGION

**N.G.GULIYEVA**

### SUMMARY

The article deals with the study of spiritual culture of the population in Shaki-Zagatala region. The author depicts the process of ethnic culture on the background of several stages of development of the process of ethnic formation.

Furthermore, the population of the specified region preserve moral-cultural traditions. The regions hold specific features of religious and cultural rituals.

**Key words:** ethnos, aids of sacrifice, amulet, anecdote